**Valeh Ələddin oğlu Ələkbərov**

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun xaricdə elmi tədbirlərdə və qısamüddətli təcrübəkeçmədə iştirakı əhatə edən xüsusi layihələrin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 3-cü "Mobillik qrantı" müsabiqəsi (EİF-Mob-3-2013-6(12))**

# HESABAT

"Arxeologiya elm sahəsi üzrə və qazıntılardan aşkar olunmuş materialların elmi ekspozisiyasının təşkil olunması istiqamətində yeni biliklərin əldə olunması məqsədilə qısamüddətli təcrübə keçmək" adlı layihə çərçivəsində 11.03.2014-cü il tarixindən 31.03.2014-cü il tarixinədək Yaponiyanın Tokyo Universiteti, Universitet muzeyində 3 həftəlik qısa müddətli təcrübədə iştirak etdim. Burada qısamüddətli təcrübəyə məsul şəxs, professor Yoşihiro Nişiyakinin məsləhəti ilə işimizin qısa planını hazırladıq və bunu iki istiqamətə böldük. Birincisi, arxeoloji materialların elmi ekspozisiyasının təşkil olunması istiqamətində Yaponiyada mövcud olan muzeylərin və arxeoloji qazıntı sahələrində yaradılmış arxeoparkların təşkil olunmasında tətbiq olunan ən müasir metodologiya ilə yaxından tanış olub bu istiqamətdə ixtisaslaşmış kadrlarla elmi seminarlar keçirtməklə yeni bilikərin əldə olunması, ikincisi isə arxeoloji qazıntılarda tətbiq olunan qazıntı metodları, arxeoloji qazıntılardan aşkar edilmiş materiallarla işləmək bacarığının artırılması məqsədilə bu sahədə ixtisaslaşmış mütəxəssislərlə praktik olaraq birgə işləmək.

1-ci Planımıza uyğun olaraq bu əvvəlcə Kamitsukeno - sato Arxeologiya Muzeyi, Yokohama Tarix Muzeyi, Kyuşu Milli Muzeyi, Milli Təbiət ve Elm Muzeyi, Kitafunkyubo açıq səma altında Muzey, Milli təbiət və botanika bağı və botanika Muzeyi, Qədim Şərq Muzeyi, Doigahama, Nakoku, Yoşinoqari və Gumma arxeoparklarını ziyarət etməkdən başladıq. Burada məqsədimiz Yaponiyada Muzeylərin təşkil edilməsində və artefaktların sərgilənməsində hansı metodlardan istifadə edilməsini əyani surətdə anlamaq və Azərbaycanda bu sahədə tətbiq olunan metodlarla fərqini müqayisə etməklə aşağıda sadalanan qaranlıq məqamlara aydınlıq gətirməkdən ibarət olmuşdur:

1) Qazıntılardan aşkar edilmiş materialların sərgilənməsinin əhəmiyyəti nədən ibarətdir?
2) Keçmişin sosial, siyasi, iqtisadi və mədəni həyatınının bir çox məqamlarını özündə saxlayan artefaktlarda mövcud olan biliklər yalnız araşdırmacılar üçündür yoxsa cəmiyyətin də bunları bilməsi vacibdir?

3) Arxeoloji qazıntıların aparıldığı abidələrin ətrafında və ya üzərində yaradılmış Açıq səma altında muzeyləri və arxeoparkları ziyarət etməyə gələn insanları onların anlayacağı sadə və dolğun formada necə başa salmaq olar?

**Muzeylər.** Yaponiya muzeylərin təşkil olunmasında müstəsna təcrübəyə malikdir. Yaponiyanın Tokyo və Fukuoka şəhərlərində yerləşən muzeylərdə və arxeoparklarda apardığımız araşdırmalardan sonra Tokyo Universitetlərinin mütəxəssiləri Professor Yoşihiro Nişiyaki, dr. Hiroto Nakata və Qədim Şərq Muzeyinin elmi işçisi Kazuya Şimoqama ilə keçirtdiyimiz seminarlarda onların təşkili və sərgilənməsində istifadə edilmiş yeni üsullar və onların üstünlükləri barədə müzakirələr apardıq.

Muzeylərdə diqqət çəkən əsas vacib məqamlardan biri içəriyə daxil olmadan öncə sərgi qalereyasının bölmələrini əks etdirən bələdçi tablonun yerləşdirilməsidir. Bu isə buranı ziyarətə gələnlərin muzeyi gəzməyə başlamamışdan qabaq bölmələrdə ekponatların dövrlər üzrə hansı ardıcıllıqla yerləşməsi haqqında ümumi məlumat verir. Bundan əlavə, muzeylərdə xüsusi kabinələrdə eksopnatlar haqqında məlumat verən dijital monitorlar yerləşdirilmidir. Bu üsulun tətbiq edilməsi muzeyi ziyarət edən insanların burada yerləşən dövrlər və eksponatlar haqqında səthi olaraq ümumi məlumata sahib olmasını asanlaşdırır. Daha sonra ən qədim dövrdən müasir dövrədək olan müddəti həmin dövrlərə məxsus əmək alətləri, məişət və həyat fəaliyyətini əks etdirən fotolarla birlikdə xronoloji xəritə yerləşdirilmişdir. Bu isə xronoloji ardıcıllığın ictimaiyyətə daha anlaşıqlı çatdırılmasını təmin edir. Digər bir məsələ isə, Muzeyin ortasında xüsusi bir yerdə insanlar üçün dəyirmi stollar və stullar yerləşdirilməsidir. Ətrafda isə rəflərdə Muzeydə əks olunan artefaktlarla bağlı geniş məlumatları əks etdirən kitablar və artefaktlar mövcuddur. Ziyarətçilər burada oturub seçdikləri kitabları və ya broşurları oxuyub ətraflı məlumat əldə edə bilər. Burada hətta uşaqlar üçün oyun xarakterli monitorlar yerləşdirilmişdir. Onlar “arxeoloji oyunlar” oynamaqla eksponatlar haqqında onların anlayacağı formada məlumata sahib olurlar. Bu isə onların sonradan, sərgilənən materiallara baxdıqda hər şeyi daha aydın başa düşə bilmələrinə şərait yaradır. Eyni zamanda Muzeylərdə elan və məlumat xarakterli kağızlar yerləşdirilmişdir. Bunlar da növbəti gün, həftə, ay və il ərzində planlaşdırılan tədbirlər və sərgilər haqqına əvvəlcədən insanları məlumatlandırır.

Digər önəmli bir cəhət isə, Muzeylərin daxilində təxminən 15-20 dəqiqəlik müddətdə Muzeyin tarixi, sərgilənən eksponatlar və onların aşkar edildiyi arxeoloji abidələr haqqında sadə formada başa düşülən tərzdə qısa və dolğun film nümayiş etdirən teatrın olmasıdır. Bu da öz növbəsində, bu sahəyə olan marağı artırmaqla,

burada mövcud olan Muzey və onun ətrafında yerləşən Arxeopark haqqında sadə, anlaşıqlı və dolğun bilgilər aşılayır.

Ümumiyyətlə, muzeylərdə ən maraqlı xüsusiyyət hər hansı bir tarixi dövrə aid materiallar - gil fiqurlar, saxsı qablar, silahlar, geyim əşyalarının hər biri ayrı-ayrı bölmələrdə xronoloji ardıcıllıqla, yəni, onların məxsus olduğu ən qədim dövrlərindən başlayaraq, son inkişaf dövrünədək ardıcıllıqla yerləşdirilməsidir. muzeyin içərisində hər bir dövrü xarakterizə edən xüsusi bölmə mövcuddur. Bu bölmələrdə artefaktlar, onların mənasını izah edən maketlər, artefaktların haradan və necə aşkar edilməsini göstərən şəkillər və qazıntı ərazisinin şəkilləri yerləşdirilmişdir. Bəzi hissələrdə əmək alətləri və məişət əşyalarını göstərən vitrinlərdə onların məişətdə nə məqsədlə və necə istifadə edilməsini işarə edən izahlı şəkillər verilmişdir . Bu bir tərəfdən həmin materialın aşkar edildiyi abidənin ön plana çıxmasını təmin edir, həm də ziyarətçilərin yaddaşında maraqlı təəssüratlar oyadır. Hər bir vitrinin qarşısında sərgilənən eksponatlar və ümumiyyətlə mərkəzi hissədə yerləşdirilmiş  bütün vitrinlər haqqında qısa məlumat verən dijital monitorların olması insanların  sərgilənən eksponatlar haqqında ümumi təsəvvürə malik olmasını və hər bir məqamın incəliklərinədək dərk etmələrini asanlaşdırır.

Bu sahə ilə məşğul olmayan insanlar bəzən hər hansı bir arxeoloji dövrdən aşkar edilən tapıntıların nə məqsədlə və necə istifadə edilməsini o qədər də düzgün başa düşə bilmir. Bu isə onun avtomatik olaraq yanlış bilgiləndirilməsi deməkdir. Bunun üçün, Muzeyin mərkəzi hissəsində hər bir dövrün yaşayış tərzini, insanlarının həyat fəaliyyətini və həmin dövr məşğuliyyətini ardıcıllıqla xarakterizə edən maketlər (mulyajlar) düzəldilmişdir. Bu maketlərdə həmçinin o dövr insanlarının antropoloji quruluşu, geyimləri, məişət əşyaları canlandırılır ki, bu da həmin dövrdə cəmiyyətin həyat və məişət fəaliyyəti haqqında ümumi təsəvvürlər formalaşdırır.

Hər bir tarixi mərhələdə insanların məskunlaşmasını şərtləndirən landşaft, əlverişli təbii şərait, bitki və heyvanat aləmi vardır. Hər bölmədə bununla əlaqədar olaraq, rekonstruksiya modelinin yaradılmışdır. Bu da  bəhs edilən hər hansı bir dövrün təbii coğrafi şəraitinin ifadə edilməsi baxımından vacib xüsusiyyətlərə malikdir.

Muzeydə həmçinin Sərgilənən arxeoloji dövrlərlə bağlı kitabların yerləşdirlidiyi kitabxananın olması bu sahədə hər hansı bir arxeoloji dövrlə məşğul mütəxəssislərin və tələbələrin araşdırma fəaliyyətinin asanlaşdırılmasına xidmət edir.

**Arxeoparklar.** Bildiyimiz kimi arxeoparklar arxeoloji qazıntılar nəticəsində ortaya çıxardılmış maddi-mədəniyyət abidələrinin qorunmasını və həmin bölgəyə turistlərin cəlb olunması baxımından insanların ziyarət etməsi məqsədini daşıyır. Əvvəllər arxeoloji qazıntı əraziləri sadəcə arxeoloji biliklərin əldə edilməsi və bu sahədə çalışan yeni elm adamlarının yetişdirilməsi məqsədini daşıyırdı və buradan aşkar olunan madd-mədəniyyət nümunələri sadəcə şəhərlərdə yerləşən xüsusi muzeylərdə yerləşdirilirdi. Lakin, hal-hazırda qeyd edilən xüsusiyyətlər saxlanılmaqla qazıntı ərazisində açıq səma altında muzeylər və abidələrin üzərində dövrün yaşayış tərzini bərpa edən rekonstruksiya modellərinin, yəni ümumilikdə qeyd etsək "Arxeoparklar" ın yaradılmasına üstünlük verilir.

Arxeoparkların yaradılmasında yeni metodların tətbiq edilməsi yolu ilə onların ictimaiyyətə təqdim olunmasında Yaponiyanın əldə etdiyi nailiyyətləri nəzər alıb bu sahədə araşdırma apardıq. Seminarlarda apardığımız diskusiyalarda müşahidələrimiz əsasında arxeoparkların yaradılmasında və sərgilənməsində əsas diqqət yetiriləsi məsələlərə aydınlıq gətirdik.

Arxeoparklarda giriş hissədə xüsusi tablonun üzərində onun əhatə etdiyi sahəni göstərən xəritə yerləşdirilmişdir. Bununlada ziyarətçilər onun ərazisinin yerləşmə arealını və təxminən haranı ziyarət etməsi haqqında qısa məlumat alır. Arxeoparkların içərisində tədris məqsədli təcrübə mərkəzi yaradılmışdır. Burada xüsusi kuratorların köməyi ilə arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş materialların oxşarlarının yaradılmasının əhəmiyyəti praktik cəhətdən mühüm əhəmiyyət daşıyır. Xüsusilə yetişməkdə olan gənc nəslə arxeoloji bilgilərin bu yolla çatdırılması onların bu sahədə elmi biliklərinin daha dərindən mənimsənilməsinə kömək edir. Bu yolla həm də o dövr insanlarının texnoloji inkişaf səviyyəsi, sosial-iqtisadi vəziyyəti haqqında daha dəqiq bilgilər almaq mümkündür. Həmçinin, bu bir tərəfdən Arxeoparkı ziyarətə gələn insanların vaxtının əyləncəli keçirməsinə səbəb olur, digər tərəfdən onların praktiki bilgilərə şahid olması bu sahəyə olan marağı daha da artırır. Arxeoparkların ətrafında modellərdən düzəldilmiş o dövrün yaşam nümunəsini əks etdirən səhnə yaradılmışdır. Fikrimcə, bunun ən vacib əhəmiyyətlərindən biri ilk növbədə bu sahədə anlayışı olmayan insanların belə burada sərgilənən dövr insanlarının geyim, yaşam tərzi və məişət həyatı haqqında ümumi təsəvvür yaradacaq. Digər bir tərəfdən arxeoparklarda müəyyən hissələrdə həvəskar insanlar tərəfindən düzəldilmiş məişət əşyalarının kopyaları sərgilənir. Bu isə həvəsləndirici və maraq oyadıcı xarakter yaratmaqla bərabər insanlar arxeoparkı gəzərək tez-tez onların qarşısına çıxan keramikalara diqqət yetirdikcə onların forması, bəzək nümunələri, hazırlanma texnologiyası haqqında uzun müddət yaddaşlarında qala biləcək informasiya əldə edir.

Arxeoparklarda diqqət çəkən ən vacib meyarlardan biri də hər hansı dövrün yaşayış tərzini, landşaftını, bitki və heyvanat aləmini, insanların məşğuliyyətini, məişət və təsərrüfat həyatını yaşayış binalarını, ərzaq saxlama anbarlarını maketlərlə rekonstruksiya edən açıq səma altında Muzeylərin qurulmasıdır. Avtomatik olaraq, ziyarətçilər buranı gəzməklə bərpa edilmiş yaşayış evlərinin bərpası ilə onların həmin dövrdə malik olduğu tikinti texnologiyası, evlərin içərisində istifadə edilən qabların modelinin yaradılması ilə onların məişət həyatı və s. haqqında geniş məlumat əldə edir.

Bizim üçün daha çox maraq doğuran isə, Arxeoparklarda qazıntı sahəsinin üzərində xüsusi örtüyün qurulmasıdır. Yaponiyada Örtüyün qurulmasından əvvəl tikili qalıqları üzərində xüsusi konservasiya işləri görülür. Bu da öz növbəsində örtüyün qurulması zamanı abidəni baş verə biləcək dağıntılardan qoruyur. Abidənin üzəri bağlanmamışdan qabaq rütubətliliyin qarşısını almaq üçün ən aşağı hissədə xüsusi havalandırma sistemləri quraşdırılır və daima müəyyən edilmiş bir temperatur tənzimlənir. Bununla da, tikili qalıqlarının eroziyaya uğramasının qarşısı alınır. Ziyarətçilərin sərgilənən real qazıntı ərazisindəki artefaktları ziyarət etməsi üçün dairəvi formalı və qazıntının içərisinə doğru irəliləyən taxta və ya dəmir səkilər düzəldilmişdir. ətrafda isə qazıntı prosesini xarakterizə edən şəkillər, buradan aşkar edilmiş artefaktlar yerəşdirilir.

**İkinci** planımıza uyğun olaraq professor Yoşihiro Nişiyaki, dr. Keniçi Tano (Paleoantropoloq), Professor Gen Suva (antropologiya), Professor Hideki Endo (zoologiya), dosent Hiroşi İkeda (botanika), dosent Takenori Sasaki (paleontologiya), dosent Katsuya Yaqo (entomologiya), dosent Yuta Şino (paleontologiya), dosent Daisuke Koyabu (zoologiya), dr. Hiroto Nakata ilə birlikdə arxeoloji qazıntılarda tətbiq olunan qazıntı metodları və arxeoloji qazıntılardan aşkar edilmiş materiallarla işləmə bacarığının artırılması istiqamətində Tokyo Universitetində saxlanan və dünyanın müxtəlif ölkələrində aparılan arxeoloji qazıntılardan aşkar edilmiş artefaktlar üzərində araşdırmalar apardıq.

Birinci və ikinci seminarlarda arxeoloji qazıntılar zamanı əsas diqqət yetiriləsi məqamlar üzərində fikir mübadiləsi aparıldı. Belə ki, qazıntının əsas məqsədlərindən biri qazılan abidənin stratiqrafiyasının, yəni təbəqələnməsinin düzgün bir formada izah olunmasıdır. Çünki, mədəni təbəqə, tikinti təbəqəsi və ya memarlıq təbəqəsi kimi müəyyən edilən təbəqləri özündə birləşdirən çox qatlı yaşayış məskənlərinin üzə çıxarılaraq düzgün bir formada izah edilməsi orada yaşamış insanların tarixini üzə çıxardır. Bu baxımdan da arxeoloji qazıntı alətlərinin düzgün seçilməsi, son dövrlərdə istifadə olunan yeni qazıntı sistemləri, qazıntı prosesində qeyd edilən yazılı qeydlər, qrafik təsvirlər və foto şəkillərin

çəkilməsinin mühüm əhəmiyyəti vardır. Bu yönümdə aparılan seminarlarda həmçinin, arxeoloji qazıntıların hansı məqsədlər üçün aparılması, daha dəqiq informasiyanın əldə edilməsi üçün son dövrlərdə tətbiq olunan yeni metodlarla köhnə metodların fərqli və üstün cəhətləri müzakirə edildi.

Üçüncü və dördüncü Seminarın mövzusu isə, arxeoloji qazıntılardan aşkar edilmiş materiallarla işləmə bacarığının artırılması və artefaktlardan əldə edilən bilgilərlə bağlı olmuşdur. Təcrübə göstərir ki, arxeoloji qazıntılardan və araşdırmalardan ortaya çıxan  tapıntılar onları istifadə edən cəmiyyətlər haqqında vacib bilgilərin aşkar edilməsini təmin edir.  Bu nöqteyi-nəzərdən də, ilkin mərhələdə artefaktların düzgün toplanması, sənədləşdirilməsi, qrafik təsvirlərinin və fotoşəkillərinin çəkilməsi, qruplaşdırılması, adlandırılması, tipologiyası və statistikasının verilməsinin mühüm əhəmiyyəti vardır. Ortaya çıxan  yekun fikirlər onu deməyə əsas verir ki, bütün bu prosedurlar düzgün icra olunduğu təqdirdə qazıntılardan aşkar edilmiş materialların köməyi ilə  araşdırılan dövrün texnoloji quruluşu, istehsal təsərrüfatı, coğrafi yayılma arealı və hətta həmin dövrdə yaşayışın neçə müddət davam etdiyini də müəyyən etmək olar. Məhz bu seminarlarda yuxarıda qeyd edilən  informasiyaların əldə edilməsi üçün materiallarla düzgün və dəqiq işləmə bacarığının artırılması istiqamətində yeni elmi – təcrübi biliklər əldə olunmuşdur.

Sonuncu, yəni beşinci seminarda isə qısamüddətli təcrübənin son iki günü ərzində Tokyo Universitetində Professor Yoşihiro Nişiyaki, dr. Seyci Kadovaki və dr. Hiroto Nakata ilə birlikdə "Cənubi Qafqazın Neolit dövrü abidələri" mövzusunda seminarlar keçirildi. Burada qeyd edilən regionun qədim yaşayış məskənlərinin hansı  mədəniyyətin təsirinə məruz qalması, onların yayılma arealı, tikili qalıqlarının oxşar və fərqli xüsusiyyətləri, əmək və məişət alətlərinin müqayisəli təhlili nəticəsində bu abidələr arasında sosial-iqtisadi və sosial-siyasi əlaqələrin olub –olmaması və s. kimi məsələlərlə bağlı konkret faktlar əsasında müxtəlif fikirlər müzakirə olunaraq bir sıra qaranlıq məqamlara aydınlıq gətirildi.

Qısa müddətli təcrübənin sonunda Yaponiyanın Tokyo Universitetinin tələbə, müəllim və professor heyəti qarşısında təqdimat verərək 21 gün ərzində əldə etdiyim bilgilər və bunların  gələcək perspekitvləri barəsində geniş məruzə ilə çıxış etdim.

Qazıntı sahələrində muzey işinin təşkil olunması sahəsində Yaponiyanın Tokiyo Universiteti, Universitet Muzeyinin böyük təcrübəyə malik olunmasını nəzərə alaraq orada ölkəmiz üçün yeni olan bu sahədə də bilikərimizin inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır. Təcrübəkeçmədən əldə edilən elmi bilikər Azərbaycanda arxeoloji abidələrin ətrafında açıq səma altında muzeylərin təşkili

zamanı müasir metodlardan istifadə qaydası ilə əldə edilmiş artefaktların təqdimatı və sərgilənməsi işinin təşkilində yeni bir mərhələnin başlanğıcını qoyacaqdır.

**İmza:** **Ələkbərov V.Ə.**